

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

29 yanvar 2026-cı il, cümə axşamı
№ 017 (7084)
Qiyməti 60 qəpik


# Sülh Şurası Azərbaycanı salamlayır







Bax səh. 3

# 907-ci düzəlişin ləğvinin zəruriliyi...

Bax səh. 5

## Bakının nəqliyyat infrastrukturu: Yeni baxış, yeni reallıqlar

Bax səh.2



## YAP Sədrinin müavini Tahir Budaqov Vyetnamda "Strateji tərəfdaşlıq - siyasi partiyaların aparıcı rolu" mövzusunda tədbirdə iştirak edib

Bax səh. 4

## Azərbaycanın Qayıdış strategiyası!

Bax səh.5

## "Rəqəmsal dövlət maliyyəsi"nə keçid

Məlum olduğu kimi Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin (RDMİS) Əsasnaməsi təsdiq edilib. Əsasnamə dövlət maliyyəsinin idarə edilməsində rəqəmsallaşmanın genişləndirilməsi istiqamətində yeni tədbirlərin həyata keçirilməsi ilə bağlı mühüm prioritetləri əks etdirir. Sənəd, həmçinin, rəqəmsal maliyyə sistemin fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən etməklə dövlət maliyyəsinin daha səmərəli, şəffaf və çevik idarə olunmasını təmin etmək, maliyyə proseslərində rəqəmsal texnologiyaların tətbiqini genişləndirmək məqsədi daşıyır.

"Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi müxtəlif istiqamətlərdə rəqəmsal idarəetməni təmin edən 13 əsas altsistemdən ibarətdir. "Büdcə məlumatlarını idarəetmə", "Dövlət maliyyə nəzarəti", "Dövlət proqramlarının və investisiya xərclərinin maliyyələşdirilməsi", "Dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi", "Dövlət müəssisələrinin rəqəmsal monitorinqi", "e-azadolma", "e-müqavilə", "e-muhasibat", "e-rüsum", "e-mədaxil", "Elektron ciddi hesabat blankları", "Xəzinədarlığın rəqəmsal idarə edilməsi" və "İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi" bu altsistemlərə daxildir.

"Rəqəmsal dövlət maliyyəsi" müasir büdcə islahatlarının əsas hədəf istiqamətlərindən olmaqla, maliyyə vəsaitlərinin hərəkərinin tamamilə elektronlaşdırılmasını nəzərdə tutur.  Yeni sistemdə büdcə və fiskal sahələrlə bağlı bütün detallı və zəruri məlumatlar və alt-məlumatlar toplanacaq. Belə ki, büdcə, vergi, gömrük...

Bax səh. 3

## Son 1 ildə 14 milyard 165,5 milyon dollar artım

Bax səh. 2

## ABŞ regionda Türkiyənin gücü ilə hesablaşır

Qeyd edək ki, ötən gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla ABŞ Prezidenti Donald Tramp arasında telefon danışığı olub. Bu barədə Türkiyə Prezident Aparatının Kommunikasiya İdarəsi məlumat yayıb. Bildirilib ki, telefon danışığı zamanı Türkiyə-ABŞ ikitərəfli münasibətləri, Suriyadakı son vəziyyət, Qəzza Sülh Şurasının fəaliyyəti, xüsusilə müdafiə sənayesi sahəsində əlaqələri, eləcə də regional və qlobal məsələlər müzakirə olunub.

Prezident Ərdoğan Türkiyə ilə ABŞ arasında əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində addımlar atılmağa davam ediləcəyini, bütün sahələrdə əlaqələrin genişləndirilməsinin hər iki ölkənin qarşılıqlı maraqlarına uyğun olduğunu bildirib. O, Türkiyənin Suriyada atəşkəsin və inteqrasiya razılaşmasının tam şəkildə həyata keçirilməsinə böyük əhəmiyyət verdiyini vurğulayıb, prosesin ABŞ və Suriya hakimiyyəti ilə koordinasiyalı şəkildə yaxından izlənildiyini qeyd edib. Prezident Ərdoğan, həmçinin Qəzza Sülh Şurasının faydalı fəaliyyət göstərəcəyinə ümid etdiyini, Qəzzada humanitar fəlakətin aradan qaldırılmasının və bölgənin yenidən qurulmasının Yaxın Şərqdə davamlı sülhə töhfə verəcəyinə inandığını bildirib.

Xatırladaq ki, bu, Türkiyə və ABŞ liderlərinin son bir həftə ərzində ikinci telefon danışığıdır. Əvvəlki telefon...

Bax səh. 7



# Aİ MERCOSUR sazişini imzaladı - nə dəyişəcək?

Bax səh. 7

# Bakının nəqliyyat infrastrukturu: Yeni baxış, yeni reallıqlar



Hazırda bütün meapolislərdə olduğu kimi, paytaxtımızda da yol-nəqliyyat infrastrukturunun davamlı olaraq genişləndirilməsi ən vacib məsələlərdən biri kimi qarşıda durur. Bu məqsədlə "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" qəbul olunub.

Bəs ötən bir ildə sənədin icrası necə təmin olunub və bundan sonra hansı layihələrin həyata keçirilməsi nəzərdə tutulur? Bu barədə müvafiq qurumların rəhbər şəxsləri Dövlət Proqramının ötən il üzrə icrasına həsr olunan dəyirmi masada geniş məlumat veriblər.

**Alternativ yollar çəkilir**

"Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nda qeyd edilən avtomobil yolları üzrə layihələrdən 25-i yol infrastrukturunun tikintisi ilə əlaqədardır.

"Hazırda Dövlət Proqramının Tədbirlər Planı çərçivəsində nəzərdə tutulmuş layihələrdən "Bilgəh-Novxanı-VAZ dairəsi-Xırdalan-M4" avtomobil yolunun təqribən 60 faizi tamamlanıb, işlərin 2026-cı ilin sonuna qədər yekunlaşacağı gözlənilir. Bu layihənin davamı olan "VAZ dairəsi-M4 Şamaxı yolu" layihəsində işlərin təqribən 20 faizi tamamlanıb. İnşa işlərinin 2027-ci ildə bitməsi planlaşdırılır". Bunu dəyirmi masada Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) idarə heyətinin sədri Anar Rzayev bildirib. Onun sözlərinə görə, akademik Həsən Əliyev - "Koroğlu" metrostansiyası" layihəsinin 50 faizi tamamlanıb, 2026-cı ilin ikinci yarısında yekunlaşacağı gözlənilir. "Xaqani Rüstəmov-Ağa Neymətulla" layihəsi üzrə işlərə isə 2025-ci ilin sonunda başlanılıb, 2027-ci ilin sonunda başa çatdırılması planlaşdırılır.

AYNA sədri qeyd edib ki, yeni tunellər yolların buraxıcılıq qabiliyyətini artıracaq. "Xaqani Rüstəmov-Ağa Neymətulla" layihəsi çərçivəsində yeni tunel Ağ şəhər ərazisi, Babək prospekti ilə Heydər Əliyev prospekti və Nərimanov rayonu arasında əlaqəliliyin artırılması məqsədilə inşa edilir. "Tunel "Excelsior" qovşağından yan keçməklə Ağ şəhərdən və Nərimanovdan çıxışı mümkün edəcək. Bu isə şəxsi nəqliyyat istifadəçilərinin yola sərf etdikləri vaxtı qısaldacaq və "Excelsior" qovşağındakı yükü azaldacaq. "Akademik Həsən Əliyev-"Koroğlu" m/st" layihəsi şərq istiqamətində (Aeroport) Bakıya alternativ giriş və çıxışın yaradılmasını nəzərdə tutur. Layihə üzrə yaxın ərazilər arasında əlaqəliliyi artıracaq yeni tunel tikiləcək. Həmçinin Həsən Əliyev küçəsinin Əhməd Rəcəbli və Aşıq Molla Cümə küçələri ilə kəsişmələrində buraxılış qabiliyyəti artacaq.



"Bilgəh-Novxanı-VAZ dairəsi-Xırdalan-M-4" və "VAZ dairəsi-M-4 Şamaxı yolu" layihələri Bilgəhdən və ətraf qəsəbələrdən Sumqayıta və geriyə, həmçinin Xırdalandan Bilgəh və Sumqayıt istiqamətinə Xırdalan dairəsi və Masazır ərazisini keçmədən alternativ yolların yaradılmasını nəzərdə tutan, bir-bir ilə əlaqəli layihələrdir. Eyni zamanda, VAZ dairəsinin yenidən qurulması, M1 və M4 avtomobil yolları arasında əlavə əlaqənin yaradılması Şamaxı, Sumqayıt, Lökbatan, Bilgəh və yaxın ərazilərdən daxil olan və çıxan nəqliyyat axınının Sumqayıt şosesinin yüklənmiş hissələrini yan keçməklə, alternativ yollar vasitəsilə yönləndirilməsinə imkan verəcək", - deyə Anar Rzayev vurğulayıb.

**Bakıda inşa olunacaq ilk tramvay xətti**

Dəyirmi masada paytaxtda tramvay xəttinin bərpası ilə əlaqədar işlər görüldüyü bildirilib AYNA rəsmisinin məlumatına görə, ilk inşa olunacaq tramvay xətti Mehdiabad qəsəbəsindən metronun "28 May" stansiyasınadək uzanacaq. Artıq texniki hazırlıq işləri bitib.

Anar Rzayevin sözlərinə görə, layihələndirmədən sonra inşa işlərinə başlanılacaq. "Tikinti işlərini həyata keçirəcək şirkətlər inşa prosesinə başladıqdan 3 il sonra işləri başa çatdıracaqlarına söz veriblər. Marşrut üzrə "Sea Breeze" daxilində, yolun yatağında tramvay üçün yer rezerv edilib ki, növbəti mərhələdə inşa oluna bilsin", - deyə qurum rəhbəri əlavə edib.

**Yeni tikiləcək və yaxud bərpa olunacaq şəhərətrafı dəmiryol stansiyaları**

Tədbirdə Bakıətrafı ərazilərdə yeni tikiləcək və bərpa olunacaq dəmiryol stansiyalarının adları da açıqlanıb. Bildirildiyi kimi, Bakıətrafı ərazilərdə dəmiryol nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədilə Yeni Suraxanı-Hövsan, Bakıxanov-Binə-Qala və Zabrat-Maştağa-Bağlar dəmir yolu xətlərinin bərpası və bu xətlər boyunca mövcud stansiyaların bərpası və yeni stansiyaların inşası nəzərdə tutulur.





Anar Rzayevin sözlərinə görə, 2025-ci ildə adıçəkilən dəmiryol xətləri üzrə yol infrastrukturunun təhlili aparılıb, layihələndirmə işlərinə başlanılıb. "Layihələndirmə işlərinin bəziləri tamamlanıb. Bundan başqa, bərpa olunacaq xətlər boyunca stansiya və dayanacaqlar üzrə optimallaşdırma işləri aparılıb, stansiyaların yerləri müəyyən olunub", - deyə Anar Rzayev əlavə edib.

AYNA rəhbəri dəmiryolu nəqliyyatının səmərəliliyinə xüsusi diqqət çəkib. O bildirib ki, hazırda Bakı, Sumqayıt şəhərlərində, bütövlükdə Abşeron yarımadasında insanların gediş-gəlişini təmin edən mühüm yollardan biri də Abşeron dairəvi dəmir yolu marşrutudur. Bu marşrut iki xətdən ibarətdir: Bakı-Xırdalan-Sumqayıt və Bakı-Pirşağı-Sumqayıt. Son illərdə marşrutun təkmilləşdirilməsi, eləcə də reys sayının artırılması üzrə əhəmiyyətli tədbirlər görülüb

Onun sözlərinə görə, dəmir yolu xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə rəqəmsallaşma tədbirləri həyata keçirilib, bilet satışı onlayn təşkil edilib, mobil tətbiq istifadəyə verilib, stansiya və dayanacaqlarda modernləşdirmə işləri görülüb.

A.Rzayev əlavə edib ki, ötən il Abşeron dairəvi dəmir yolu üzrə daşınan sərnişinlərin sayı həftəiçi gündəlik 36 mindən təqribən 43 minə qədər artıb: "Bu da xidmət keyfiyyətinin artırılmasının, o cümlədən hərəkət cədvəlinin optimallaşdırılması və qatarla təhlükəsiz, rahat və maneəsiz səfərə üstünlük verilməsinin göstəricisidir", - deyə qurum rəsmisi bildirib.

**Bakıda 10 yeni metro stansiyasının tikintisi**

"Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"na uyğun olaraq, uzun illərdən sonra "Dərnəgül" elektrik deposunun inşası davam etdirilib. Anar Rzayevin sözlərinə görə, metronun "28 May" stansiyası ərazisində xətlərin ayrılması layihəsinin əsas tərkib hissəsi olan iki nöqtədə şaxtaların qazıntısına başlanılıb.

"Eyni zamanda, "İçərişəhər" stansiyasından sonra dönmə kamerasının inşası üçün ərazidə aidiyyəti qurumlarla kommunikasiyalar dəqiqləşdirilərək sahə tikinti işlərinə hazır vəziyyətə gətirilib. "Həzi Aslanov" stansiyasının dalan yolunda isə yenidənqurma işləri növbəti mərhələyə çatdırılıb", - deyə qurum rəhbəri əlavə edib.

AYNA sədri qeyd edib ki, Dövlət Proqramı çərçivəsində 10 yeni stansiyanın tikintisi Bakı metrosu tarixində qısa müddətdə reallaşdırılacaq ən böyük genişlənmə mərhələlərindən biri olacaq. Onun sözlərinə görə, bu stansiyalardan birinin 2026-cı ildə istifadəyə verilməsi nəzərdə tutulur. Ötən ildə B4 layihə adlı stansiyada təmir və tikinti işləri sürətlə davam etdirilib.

**Yol hərəkəti təhlükəsizliyini artıran 60 layihə icra edilib**

Dövlət Proqramının icrası çərçivəsində yol hərəkətinin yenidən təşkili ilə bağlı ümumilikdə 10-dan çox layihə icra olunur. Aktiv mobillik tədbirlərinin həyata keçirilməsi üçün mikromobillik və piyada infrastrukturunun genişləndirildiyini deyən Anar Rzayev hazırda Bakıda mikromobillik zolağının uzunluğunun 60,3 kilometr təşkil etdiyini, hədəfin isə 100 kilometr olduğunu açıqlayıb: "Görülən işlər çərçivəsində skuter üçün 700, velosiped üçün isə 564 parklanma məntəqəsi təşkil edilib. Hazırda icarəyə verilən skuter sayı 4900, velosiped sayı 2200-dür. 2025-ci ildə icarə xidmətindən təxminən 405 min mikromobillik istifadəçisi yararlanıb. Mikromobillik vasitələri ilə 3,74 milyon səfər edilib, qət edilən ümumi məsafə isə 10,6 milyon kilometr olub. Şəhər mərkəzində başlayan və bitən fərdi nəqliyyat vasitələri (minik avtomobili, taksi və mikromobillik) ilə edilən səfərlərin ümumi sayında mikromobilliyin xüsusi çəkisi 12 faiz təşkil edir", -deyə qurum rəsmisi əlavə edib.

*Mübariz FEYİZLİ*





# Son 1 ildə 14 milyard 165,5 milyon dollar artım

## Strateji valyuta ehtiyatlarımız 85 milyard dolları ötüb

Dövlət Neft Fondu (DNF) 2025-ci ilin yanvar-dekabr ayları üzrə gəlir və xərclərinə dair məlumatı açıqlayıb. Məlumata görə, Fondun aktivləri ilin əvvəlindəki 60 milyard dollarla nisbətdə 22,5 faiz artmaqla 2026-cı il yanvarında 1-də 73,5 milyard dollara çatıb. Bu isə o deməkdir ki, hazırda Azərbaycanın strateji valyuta ehtiyatları 85 milyard 56,4 milyon dollara yüksəlib. Belə ki, həmin rezervlərin 86,5 faizi (73,5 milyard dolları) Dövlət Neft Fonduna (DNF), 13,5 faizi və yaxud 11 milyard 514,9 milyon dolları isə Mərkəzi Banka (AMB) məxsusdur. Ölkəmizin valyuta ehtiyatları təkcə son 1 ildə 14 milyard 165,5 milyon dolları və yaxud 19,8 faiz artıb. İl ərzində DNF-in valyuta ehtiyatları 13 milyard 510,1 milyon dolları və yaxud 22,5 faiz artıb, Mərkəzi Bankın ehtiyatları isə 555,4 milyon dollar (5,1 faiz) artım nümayiş etdirib.

Azərbaycanın xalis maliyyə aktivləri və yaxud strateji valyuta ehtiyatlarının artmasında uzaqgörən iqtisadi siyasət mühüm rol oynamaqdadır. Strateji ehtiyatların artması ölkəmizin makroiqtisadi sabitliyinin möhkəmlənməsində, dayanıqlı iqtisadi dəyər zəncirinin formalaşmasında xüsusi əhəmiyyət kəsb edir. Hazırda Azərbaycan xalis valyuta rezervlərinin həcmi ümumi daxili məhsulü (ÜDM) xeyli üstələyib. Bu, dünyada ən yaxşı göstəricilərdən biridir.

**Valyuta ehtiyataları xarici borcu 18,5 dəfə üstələyir**

Son illərdə həm Dövlət Neft Fondunun, həm də Azərbaycan Mərkəzi Bankının ehtiyatlarında əhəmiyyətli artımlar müşahidə edilir ki, bu da çoxşaxəli rezerv portfelinin böyüməsini təşviq edir. Ehtiyatların böyüməsində qiymət və hasilat faktorları təsiredici funksiya daşısa da, çevik maliyyə siyasəti, ələxsus da Neft Fondunun qlobal investor kimi aparıcı oyunçuya çevrilməsi və rezervlərin uğurlu idarəedilməsindən qazandığı daxilolmaların rolu da xüsusi rol oynamaqdadır.







Həyata keçirilən güclü maliyyə siyasəti və iqtisadi inkişaf dinamikası, eyni zamanda, ixrac potensialının yüksək artımı respublikamızın maliyyə sabitliyinin möhkəmlənməsinə dərin zəmin yaradıb və valyuta gəlirlərinin çoxalmasını təmin etməkdədir.

İqtisadi təhlükəsizlik üçün zəmanətverici rol oynayan strateji valyuta ehtiyatları Azərbaycanda riskləri tam neytrallaşdırır. Ümumilikdə, strateji valyuta ehtiyatlarının yüksək templə artımı ölkə iqtisadiyyatının mümkün xarici böhran təsirlərinə qarşı həssaslığını azaldan və güclü makroiqtisadi bufer formalaşdıran amildir. Hazırkı mürəkkəb geoiqtisadi risklər və qlobal təhdidlərin artdığı dövrdə, habelə enerji bazarındakı dalğalanmalar fonunda Azərbaycan mövcud strateji valyuta ehtiyatlarının həcmi möhkəm iqtisadi sütuna çevrilir.

Güclü valyuta ehtiyatları hər bir ölkənin inkişafını təmin etməklə bərabər, həm də onun xarici borcunun müdafəçisi kimi çıxış edir. Azərbaycanın hazırkı ehtiyataları xarici borcu (4,6 milyard dollar) təqribən 18,5 dəfə üstələməklə sabitlik və dayanıqlığı daha da möhkəmləndirir.

**DNF-nin qızıl ehtiyatları 200 tona çatıb**

Azərbaycanın strateji rezervləri ilə yanaşı, qızıl ehtiyatlarında da artım baş verməkdədir. Dünya bazarında bu dəyərli metalın qiymət sıçrayışları ölkəmizə təsirsiz ötüşmür və qızıl iqtisadiyyatda çətin zamanların təhlükəsiz limanı rolunu oynadığından bütün investorlar kimi azərbaycanlı bank və fondlar, o cümlədən Mərkəzi Bank, Dövlət Neft Fondu öz portfellərində qızıl investisiyalarına üstünlük verməkdədir. Dövlət Neft Fondunun (DNF) investisiya portfelinin diversifikasiyası və gəlirliliyinin artırılması məqsədilə dövlət başçısının müvafiq fərmanı ilə "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitlərinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"a dəyişikliklər edilib və Fondun investisiya siyasətinə əsasən, yuxarı uzaqlaşma intervalı maksimum 4 faiz olmaqla, investisiya portfelinin məcmu dəyərinin 25 faizə qədəri qızıla investisiya edilməsi nəzərdə tutulub. Bu siyasətə uyğun olaraq, Neft Fondu qızıl rezervlərini artıraraq 2025-ci ildə 53,4 ton qızıl almaqla ehtiyatları 200 tona çatdırıb. Hazırda Fondun investisiya portfelində qızılın xüsusi çəkisi 38,2 faiz olub ki, bu da 1 il əvvələ nisbətən 17,6 faiz bəndi çoxdur. Bu artımda qızıl alışı ilə yanaşı, onun qiymətinin artması da rol oynayıb.

Beləliklə, Neft Fondunun investisiya fəaliyyəti ilə bağlı ümumi gəlirləri xalis neft-qaz daxilolmalarını 3 dəfə üstələyib. Son 5 ildə DNF-nin investisiya fəaliyyətindən dividentləri 22,7 milyard dollar təşkil edib. Bu müddətdə fondun aktivləri 29,9 milyard dollar və ya 70 faiz artaraq 43,6 milyard dollardan 73,5 milyard ABŞ dollara yüksəlib. Bu göstəricilər Fondun investisiya fəaliyyətinin rolunun əhəmiyyətli dərəcədə gücləndiyini və dayanıqlı dəyər yaradan əsas mənbələrdən birinə çevrildiyini nümayiş etdirir.

**Azad ərazilərdə qızıl dövrü başlayır**

Azərbaycan həm qızıl istehsal edən ölkədir. 2025-cü ilin yanvar-noyabr aylarında ölkəmizdə 2815 kq qızıl istehsal edilib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,7 faiz artım deməkdir. Mövcud ehtiyatlar təsdiqləyir ki, ölkəmizdə qızıllçıxarma sənayesinin perspektivləri çox ümidvericidir. Çünki işğaldan azad edilmiş ərazilərdə qızıl ehtiyatları kifayət qədər böyükdür. Hazırda azad edilmiş ərazilərdə qızılçıxarma sənayesində yeni mərhələ başlayıb. Kəlbəcər, Zəngilan, Cəbrayıl, Ağdərə rayonlarındakı qızıl yataqlarının hasilatına xarici investorlar cəlb edilib. Bu isə azad ərazilərin böyük valyuta gətirəcək zonaya çevrilməsinə, Azərbaycanın qızıl ehtiyatlarının artmasına səbəb olacaq.

Hazırda Azərbaycan hökuməti Kəlbəcər, Zəngilan, Cəbrayıl, Ağdərə rayonlarındakı qızıl yataqlarının hasilatına xarici investorları cəlb etməkdədir. Qardaş Türkiyənin "Eti Bakır A.Ş" və "Artvin Maden A.Ş" şirkətləri Kəlbəcərin "Qaşqaçay", "Elbəydaş" və "Ağduzdağ" filiz yataqlarında hasilata başlamaqdadır. Eləcə də digər zəngin mənbələr olan "Söyüdlü", "Qızılbulaq", "Vejnəli", "Dəmirli" yataqlarının işlənməsi üçün xarici investorların təklifləri nəzərdən keçirilir. Bu isə azad ərazilərin böyük valyuta gətirəcək zonaya çevrilməsindən xəbər verir. Nəzərə alsaq ki, azad edilmiş ərazilərdə çalışan investorlar torpaq, mənfəət, gəlir və s. vergilərdən, eləcə də qızıl və gümüş məhsullarının satışı əlavə dəyər vergisindən azad olunublar, bu halda qızıl sənayesinə marağın daha da artacağı şəksizdir.

*E.CƏFƏRLİ*




# Sülh Şurası Azərbaycanı salamlayır




Sirr deyil ki, XXI əsrin ikinci rübünə qədəm qoyan dünya əvvəlki təhlükəsizlik mexanizmlərinin effektivliyini itirdiyi, regional münaqişələrin isə qlobal xarakter aldığı yeni bir reallıqla üz-üzədir. Bir sıra güclər arasında artan geosiyasi rəqabət, beynəlxalq hüququn selektiv tətbiqi və beynəlxalq təşkilatların böhranlara operativ reaksiya verə bilməməsi qlobal təhlükəsizliyin təminini ciddi çağırışa çevirib. Xüsusilə BMT Təhlükəsizlik Şurası, ATƏT və digər nüfuzlu platformaların bir çox hallarda hadisələrin qarşısını almaqda aciz qalması yeni yanaşmalara ehtiyacı daha da aktuallaşdırır.

Belə bir şəraitdə qlobal sülh və təhlükəsizliyin qorunması təkcə böyük dövlətlərin deyil, məsuliyyətli orta güclərin də üzərinə düşən vəzifəyə çevrilib. Son bir il ərzində ABŞ Prezidenti Donald Trampın müxtəlif münaqişə ocaqlarında gərginliyin azaldılması istiqamətində ortaya qoyduğu təşəbbüslər göstərir ki, yeni dünya nizamında praqmatik diplomatiya və nəticəyönümlü siyasət ön plana çıxır. Müxtəlif regionlarda atılan bu addımlar bir daha sübut edir ki, qlobal təhlükəsizlik artıq kollektiv töhfəyə ehtiyac duyan ümumbəşəri məsələyə çevrilib.

Məhz bu kontekstdə Azərbaycan getdikcə daha aydın şəkildə beynəlxalq təhlükəsizliyin fəal iştirakçısı kimi çıxış edir. Regional liderlikdən qlobal məsuliyyət mərhələsinə yüksələn Bakı özünün praqmatik xarici siyasəti, sülhyönümlü təşəbbüsləri və etibarlı tərəfdaş imici ilə yeni təhlükəsizlik arxitekturasının formalaşmasına real töhfələr verir.

## Regional sabitlikdən qlobal vasitəçiliyə...

Azərbaycanın beynəlxalq təhlükəsizlik sisteminə verdiyi töhfələrin əsasını Cənubi Qafqazda yaratdığı yeni reallıq təşkil edir. 2020-ci il Vətən müharibəsindən sonra bölgədə formalaşan təhlükəsizlik arxitekturası uzun illər davam edən qeyri-müəyyənliyi aradan qaldırdı və regional sabitlik üçün fundamental zəmin formalaşdırdı. Bakı post-müharibə dövründə siyasi və diplomatik alətləri ön plana çıxardı. Bu yanaşma Azərbaycanın məsuliyyətli və uzaqgörən aktor olduğunu bir daha təsdiqlədi. Bir daha übut olundu ki, yeni təhlükəsizlik modeli yalnız hərbi üstünlüyə deyil, qarşılıqlı etimad, iqtisadi inteqrasiya və kommunikasiya xətlərinin açılmasına əsaslanır. Məhz bu səbəbdən Cənubi Qafqaz artıq qlobal qarşıdurma zonasından çıxaraq əməkdaşlıq və tranzit imkanları ilə seçilən strateji məkana çevrilməkdədir. Bu transformasiya isə birbaşa Azərbaycanın siyasi iradəsi və diplomatik fəallığının nəticəsidir.

Bakı bununla kifayətlənməyərək regional çərçivədən kənara çıxır. Ötən dövrlərdə Yaxın Şərqdə müşahidə olunan gərginliklərin azaldılması istiqamətində Azərbaycanın oynadığı vasitəçilik rolu diqqət çəkir. İsrail-Suriya, eləcə də İsrail-Türkiyə münasibətlərinin normallaşdırılması istiqamətində aparılan diplomatik təmaslar Bakının neytral, etibarlı və dialoqa açıq platforma kimi qəbul edildiyini göstərir. Bu fakt Azərbaycanın artıq yalnız regional deyil, qlobal sabitləşdirici aktor statusu qazandığını nümayiş etdirir.

## Regional sabitliyin təminində Bakı modeli




## Azərbaycanın qlobal sülh gündəmində institusional rolu

Azərbaycanın qlobal təhlükəsizlik sistemində artan rolunun daha bir mühüm təsdiqi Ümumdünya İqtisadi Forumu çərçivəsində Davosda atılan addımlarla öz əksini tapdı. Yanvarın 22-də Prezident İlham Əliyevin "Sülh Şurasının Nizamnaməsi"ni imzalaması Bakının qlobal sülh uğrunda apardığı ardıcıl siyasətin məntiqi davamı oldu. Bununla da Azərbaycan Sülh Şurasının təsisçi üzvlərindən birinə çevrildi.

Bu addım sıradan diplomatik hadisə deyil, qlobal təhlükəsizlik arxitekturasının formalaşmasında Azərbaycanın institusional iştirakının göstəricisidir. Sülh Şurası kimi beynəlxalq platformalarda yer almaq Bakıya qlobal proseslərə təsir imkanlarını genişləndirməklə yanaşı, ölkənin sülh gündəmini beynəlxalq səviyyədə irəli sürməsinə şərait yaradır. Azərbaycanın burada iştirak etməsi onun yalnız təşəbbüskar deyil, həm də məsuliyyət daşıyan aktor olduğunu nümayiş etdirir.

Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasının X sosial mediasında səhifəsi yaradılıb. Səhifədə Sülh Şurası təsisçi üzv kimi Azərbaycanı salamlayıb. Azərbaycanla yanaşı səhifədə Sülh Şurasına üzv olan digər ölkələrə dair salamlama posterləri də yerləşdirilib.

Beləliklə, Davos platforması dünyaya açıq mesaj verdi: Azərbaycan qlobal problemlərin müşahidəçisi deyil, həll yollarının formalaşdırılmasında iştirak edən tərəfdir. Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, iqlim çağırışları və regional münaqişələrin həlli kimi məsələlərdə Bakının mövqeyi artıq nəzərə alınan faktora çevrilib. Bu isə ölkənin beynəlxalq nüfuzunun keyfiyyətcə yeni mərhələyə yüksəldiyini göstərir.

## Cənubi Qafqazın yeni siması...

Azərbaycanın təhlükəsizlik siyasətinin əsas fərqləndirici cəhəti qalib mövqedən revanşizmə deyil, sülhə üstünlük verməsidir. Tarixdə nadir hallarda rast gəlinən bu yanaşma Cənubi Qafqaz üçün yeni iqtisadi-siyasi münasibətlər sisteminin əsasını qoydu. Bakı açıq şəkildə bəyan etdi ki, regionun gələcəyi qarşıdurmada deyil, əməkdaşlıqdadır.

Sülh sazişi təşəbbüsləri, kommunikasiyaların bərpası və iqtisadi layihələrin irəli sürülməsi bölgədə qarşılıqlı asılılıq mexanizmini gücləndirir. Nəticədə Cənubi Qafqaz artıq böyük güclərin toqquşma meydanı kimi deyil, Şərqlə Qərbi birləşdirən əməkdaşlıq platforması kimi xarakterizə olunmağa başlayır. Bu transformasiya birbaşa Azərbaycanın strateji baxışının məhsuludur.

Qlobal aktorlar da bu reallığı qəbul edir. Artıq beynəlxalq siyasi dairələrdə Cənubi Qafqazdan danışarkən "risk zonası" deyil, "imkanlar regionu" anlayışı daha çox səslənir. Bu dəyişiklik isə Azərbaycanın yaratdığı təhlükəsizlik və sülh modelinin regional hüdudları aşaraq qlobal miqyasda rezonans doğurduğunu göstərir.

## Londonda Cənubi Qafqaz müzakirəsi...

Vurğulandığı kimi, Azərbaycanın bu yanaşması qlobal mühitdə də yüksək təqdirlə qarşılanır. Məsələn, Londonda Kral Birləşmiş Xidmətlər İnstitutu (RUSI) və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə "Geosiyasi qeyri-müəyyənlik şəraitində Cənubi Qafqazda sülhün qurulması" mövzusunda dəyirmi masa keçirilib. İki paneldən ibarət tədbirdə Azərbaycan və Böyük Britaniyadan yüksəksəviyyəli qonaqlar, eləcə də regional ekspertlər iştirak ediblər. Birinci panel RUSI-nin Beynəlxalq Təhlükəsizlik üzrə direktoru Neil Melvinin moderatorluğu ilə "Geosiyasi transformasiyalar və regional təhlükəsizlik nizamı" mövzusuna həsr olunub. Paneldə çıxış edən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin Sədri Fərid Şəfiyev Cənubi Qafqazda dəyişən regional dinamikanı, Azərbaycanın bölgədə aparıcı aktor kimi formalaşan rolunu və davamlı sülhə, möhkəm regional sabitliyə nail olmaq üçün ABŞ-ın bölgədə davamlı iştirakının strateji əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, onilliklər davam edən münaqişə və ərazilərin işğalından sonra Azərbaycan hazırda Cənubi Qafqazda və daha geniş coğrafiyada sülhü təşviq edir. Azərbaycan xarici siyasətini milli maraqlara uyğun şəkildə həyata keçirir, qarşılıqlı fayda və etimada əsaslanan mümkün qədər geniş tərəfdaşlıqlar qurmağa çalışır.

"Chatham House"un baş elmi işçisi Natali Sabanadze Gürcüstanın dəyişən regional dinamika çərçivəsində rolundan bəhs edib. Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun İdarə Heyətinin sədri və Qlobal Cənub QHT Platformasının müvəqqəti Baş katibi Ramil İsgəndərli Azərbaycanla Ermənistan arasında davam edən sülh quruculuğu təşəbbüslərinin mühüm rolunu vurğulayıb. O, vətəndaş cəmiyyəti nümayəndələri arasında uzunmüddətli dialoqun qurulması və qorunmasında "Sülh Körpüsü" Təşəbbüsünün əhəmiyyətini qeyd edib.

İkinci panel Fərid Şəfiyevin moderatorluğu ilə regionda iqtisadi inteqrasiyanın mövcud imkanlarına, bu imkanların Azərbaycanla Ermənistan arasında davam edən sülh quruculuğu prosesləri ilə əlaqəsinə və iqtisadi əməkdaşlıqla qarşılıqlı asılılığın Cənubi Qafqazda sülhyaratma aləti kimi roluna həsr olunub. Milli Məclisin deputatı, Azərbaycan-Böyük Britaniya parlamentlərarası dostluq qrupunun sədri və İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə Azərbaycanın Cənubi Qafqazın regional gündəminin yenidən formalaşdırılmasında aparıcı rolunu önə çəkib. O, Azərbaycanın bir sıra çoxtərəfli platformalarda liderliyinin regionda sabitlik və rifahın təmininə töhfə verdiyini bildirib, həmçinin Orta Dəhliz kimi regional layihələrin sülhün qurulma proseslərini dəstəkləmək baxımından əhəmiyyətini qeyd edib.

*Pərviz SADAYOĞLU*

# "Rəqəmsal dövlət maliyyəsi"nə keçid




## Dövlət maliyyəsinin idarə edilməsində yeni yanaşmalar büdcə vəsaitlərinin xərclənməsində şəffaflığı artıracaq

Məlum olduğu kimi Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin (RDMİS) Əsasnaməsi təsdiq edilib. Əsasnamə dövlət maliyyəsinin idarə edilməsində rəqəmsallaşmanın genişləndirilməsi istiqamətində yeni tədbirlərin həyata keçirilməsi ilə bağlı mühüm prioritetləri əks etdirir. Sənəd, həmçinin, rəqəmsal maliyyə sistemin fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən etməklə dövlət maliyyəsinin daha səmərəli, şəffaf və çevik idarə olunmasını təmin etmək, maliyyə proseslərində rəqəmsal texnologiyaların tətbiqini genişləndirmək məqsədi daşıyır.

"Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi müxtəlif istiqamətlərdə rəqəmsal idarəetməni təmin edən 13 əsas altsistemdən ibarətdir. "Büdcə məlumatlarını idarəetmə", "Dövlət maliyyə nəzarəti", "Dövlət proqramlarının və investisiya xərclərinin maliyyələşdirilməsi", "Dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi", "Dövlət müəssisələrinin rəqəmsal monitorinqi", "e-azadolma", "e-müqavilə", "e-muhasibat", "e-rüsum", "e-mədaxil", "Elektron ciddi hesabat blankları", "Xəzinədarlığın rəqəmsal idarə edilməsi" və "İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi" bu altsistemlərə daxildir.

### Büdcə islahatlarının yeni hədəfləri

"Rəqəmsal dövlət maliyyəsi" müasir büdcə islahatlarının əsas hədəf istiqamətlərindən olmaqla, maliyyə vəsaitlərinin hərəkərinin tamamilə elektronlaşdırılmasını nəzərdə tutur. Yeni sistemdə büdcə və fiskal sahələrlə bağlı bütün detallı və zəruri məlumatlar və alt-məlumatlar toplanacaq. Belə ki, büdcə, vergi, gömrük, dövlət rüsumu, dövlət mülkiyyətində olan və paylarının və səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üzrə dividendlərin və digər büdcə daxilolmalarının, habelə audit, mühasibat uçotu, dövlət maliyyə nəzarəti, dövlət xəzinədarlığı, dövlət borcu sahələrinin və maliyyə öhdəliklərinin hərəkəti üzrə ən kiçik informasiyalar bu resurslarda yerləşdiriləcək. Əsas məqsəd bu bazada yerləşən maliyyə-fiskal büdcə hərəkətlərinin şəffaf izlənməsi və nəticədə səmərəli idarəetmə arxitekturasının qurulmasıdır.

### Rəqəmsal maliyyə bütün büdcə məlumatlarına çıxışı təmin edəcək

Maliyyə Nazirliyi yaxın 3 ay ərzində "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin əsasnaməsinin layihəsini hazırlayaraq hökumətə təqdim edəcək. Eyni zamanda, dövlət orqanlarının, dövlət büdcəsindən maliyyə vəsaiti alan dövlət mülkiyyətində olan və paylarının nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və digər təşkilatların maliyyə sənədlərinin elektron qaydada mübadiləsinin təmin edilməsi məqsədilə yeni təkliflər paketi hazırlanacaq. Habelə adıçəkilən təşkilatların illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqi və icra göstəricilərinin təhlili qaydaları layihəsi tərtib olunacaq. Digər bir məqam dövlətə məxsus səhmdar qurumların və publik hüquqi şəxslərin xalis mənfəətinin bölüşdürülməsi və dividend siyasətinin ümumi parametrlərinin hazırlanmasıdır. Həmin qurumların hər birinin fəaliyyətinin monitorinqi məqsədilə xüsusi müşahidə sistemi yaradılacaq. Belə ki, dövlət büdcəsindən ayrılan vəsaitin istifadəsi, büdcə ssudaları, dövlət sifarişi ilə həyata keçirilən layihələr, subsidiya və subvensiyaların dövlət xəzinədarlığı vasitəsilə ünvanlı icra edilməsi və bütün bank hesabları barədə məlumatları Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən müşahidə mexanizmi yaradılacaq ki, dövlət maliyyəsində hansısa nöqsan olduğu halda dərhal təsirli tədbirlər görüləcək. Yeri gəlmişkən, adı qeyd edilən hüquqi və publik hüquqi şəxslər öz maliyyə icra göstəriciləri barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə də məlumatları təqdim edəcək.

### Əməkhaqqı sistemlərinin ekspertizası aparılacaq

Bundan başqa, dövlət vəsaiti hesabına mal, iş və xidmətlərin satınalınması elektron müqavilələr əsasında həyata keçirilməklə, bütün müqavilələr elektron qaydada bağlanılacaq. Dövlət vəsaiti hesabına həyata keçirilən dövlət investisiya layihələrinin və digər infrastruktur layihələrinin isə maliyyə ekspertizası aparılacaq. Həmçinin, büdcə təşkilatları və digər hüquqi şəxslərdə (eləcə də publik hüquqi şəxslər) maliyyə strukturu, ştat vahidləri və əməkhaqqı sistemlərinin maliyyə ekspertizası həyata keçiriləcək. Məqsəd hansısa qurumda artıq və ya süni ştat vahidinin saxlanmasının qarşısını almaqdır.

Maliyyə Nazirliyi öz mandatına uyğun olaraq dövlət vəsaitindən istifadə üzrə maliyyə qaydalarının pozulması və bu vəsaitdən təyinatı üzrə istifadə edilməməsi hallarına görə məsuliyyət tədbirlərini təkmilləşdirəcək. Bu, hansısa qurumun büdcə vəsaitlərindən sui-istifadə niyyətlərinin qarşısının alınmasında təsirli mexanizmlərdən biri olacaq.

### Açıq büdcə siyasəti faydasını verir

Qeyd edək ki, ölkəmizdə şəffaf və hesabatlı büdcə, səmərəli maliyyə idarətmə sistemi maliyyə orqanlarının əsas məqsəd və prinsiplərindən biridir. Azərbaycan son illərdə dövlət maliyyəsinin idarə olunmasında şəffaflıq göstəricisi kimi mühüm alətlərə üstünlük verərək maliyyə siyasətini xeyli təkmilləşdirib. Belə ki, büdcə məlumatlarının ictimaiyyətə əlçatanlığı (Open Budget Index), büdcə prosesində ictimai iştirakçılıq səviyyəsi (Public Participation), qanunverici hakimiyyət orqanı və ali audit orqanının rolu və fəaliyyəti (Budget Oversight) meyarları sahəsində kifayət qədər müsbət nəticələr əldə olunub. Eləcə də, maliyyə orqanı tərəfindən hər il ilkin büdcə bəyanatının açıqlanması, büdcə layihəsinin funksional təsnifatı, Vətəndaşın Büdcə Bələdçisinin hazırlanması və ictimaiyyətə təqdim edilməsi, dövlət büdcəsinin icrasına dair aylıq, yarımillik və illik hesabatların açıqlanması, dövlət büdcəsinin icrasına dair audit hesabatı maliyyə-büdcə nəzarəti siyasətinin son illərdə təkmilləşdirməsinin mühüm göstəricisi hesab edilə bilər.

Azərbaycan Beynəlxalq Büdcə Tərəfdaşlığı təşkilatının (International Budget Partnership) tövsiyələri əsasında özünün maliyyə sistemini daha da təkmilləşdirir.

Hazırda icra olunan 2025-ci ilin dövlət büdcəsi layihəsi də dövlət maliyyəsinin idarə olunması sahəsində bir sıra fiskal alətlər, həmçinin "Açıq Büdcə Sorğusu"nun metodologiyasına uyğun olaraq, ictimaiyyətə açıqlıq metodologiyası və şəffaflıq prinsiplərinin təmin olunması məqsədi ilə hazırlanıb. Məhz bunun nəticəsidir ki, son iki ildə açıqlanan "Açıq




Büdcə İndeksi " hesabatlarında Azərbaycan öz göstəricilərini yaxşılaşdırır. Respublikamız ölkələr adekvat büdcə açıqlığına malik ölkələr qrupunda yer alır. Azərbaycan, həmçinin, dövlət maliyyəsinin idarə olunmasında Dünya Bankının "Dövlət Xərcləri və Maliyyə Hesabatlılığı", Beynəlxalq Valyuta Fondunun "Fiskal Şəffaflığın Ən Yaxşı Təcrübələr Məcəlləsi", "Lima Bəyannaməsi", İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının "Fiskal Şəffaflıq üzrə Ən Yaxşı Təcrübələr" və "Fiskal Şəffaflıq üzrə Qlobal Təşəbbüs"ünə önəm verərək maliyyə sənədi tərtib edir. Yeri gəlmişkən, yaxın günlərdə hökumətə təqdim olunacaq 2026-cı ilin büdcə layihəsi də həmin nümunəvi modelə əsaslanacaq.

Beləliklə, yuxarıda qeyd edilən detalların hər biri dövlət büdcəsindən ayrılan vəsaitlərin hər manatının təyinatı üzrə səmərəli xərclənməsinin təmin edilməsi, büdcə nəzarəti prinsiplərinin gücləndirilməsi və dövlət maliyyəsinin xərc aktlarının hesabatlılığı və şəffaflığının tamamilə təmin olunmasıdır.

*E.CƏFƏRLİ*

# YAP Sədrinin müavini Tahir Budaqov Vyetnamda "Strateji tərəfdaşlıq - siyasi partiyaların aparıcı rolu" mövzusunda tədbirdə iştirak edib








Azərbaycan Respublikasının Vyetnamdakı səfirliyinin təşkilatçılığı ilə Hanoyda "Strateji tərəfdaşlıq - siyasi partiyaların aparıcı rolu" mövzusunda tədbir keçirilib. Tədbirdə Vyetnamın dövlət və hökumət rəsmiləri, diplomatik missiya təmsilçiləri, Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının üzvləri, Azərbaycanda təhsil almış vyetnamlı məzunlar, media və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycanın Vyetnamdakı fövqəladə və səlahiyyətli səfiri Şövqi Mehdizadə iki ölkə arasında tarixi köklərə əsaslanan səmimi dostluq münasibətlərinin mövcud olduğunu diqqətə çatdırıb. O, 1959-cu ildə Vyetnam xalqının öndəri Ho Şi Minin Azərbaycana, 1983-cü ildə isə Ümummilli Lider Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi Vyetnama səfərlərinin xalqlarımız arasında münasibətlərin və ölkələrarası əməkdaşlıq əlaqələrinin qurulmasında müstəsna rol oynadığını deyib. Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın ötən ilin may ayında Azərbaycana səfərini xatırladan səfir iki ölkə arasında münasibətlərin uğurla inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini deyib.




Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Vyetnam Kommunist Partiyasının (VKP) 14-cü qurultayının uğurla baş tutması münasibətilə təbriklərini çatdırıb.

Tahir Budaqov qeyd edib ki, müdrik dövlət xadimi Heydər Əliyev istər SSRİ dönəmində, istərsə də Azərbaycanın müstəqilliyinin bərpasından sonra ölkəmizə rəhbərlik etdiyi zaman Vyetnam ilə münasibətlərin inkişafına böyük önəm verib. Onun sözlərinə görə, Heydər Əliyev siyasətini müasir çağırışlara uyğun zənginləşdirərək uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Vyetnamla əməkdaşlığın dərinləşdirilməsinə xüsusi diqqət yetirir: "İki ölkənin fəal siyasi dialoqu tərəflər arasında çoxşaxəli işbirliyinin genişlənməsini şərtləndirir. Bu gün etibarlı strateji tərəfdaşlar olan Azərbaycan ilə Vyetnam qlobal müstəvidə bir-birinin maraqlarının müdafiəsinə böyük əhəmiyyət verirlər".

YAP Sədrinin müavini strateji tərəfdaşlıq münasibətlərinin irəliyə aparılması üçün ayrı-ayrı qurumların üzərinə mühüm vəzifələrin düşdüyünü, bu kontekstdə sıx əməkdaşlığın vacibliyini vurğulayıb.

Tahir Budaqov daimi təmasların istər ölkələr, istərsə də siyasi partiyalar arasında münasibətlərin inkişafına mühüm töhfələr verdiyini söyləyib. Qarşılıqlı səfərlərin önəminə diqqəti cəlb edən YAP Sədrinin müavini Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasındakı əlaqələrin genişləndirilməsi istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyini deyib: "2023-cü ildə YAP ilə VKP arasında imzalanmış Əməkdaşlıq Sazişindən irəli gələn vəzifələrin icrası istər partiyalarımız, istərsə də ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir".

Tahir Budaqov milli maraqlara əsaslanan birgə fəaliyyət nəticəsində yeni nailiyyətlərin əldə olunacağına əminliyini ifadə edib.

Vyetnam Milli Statistika İdarəsinin baş direktoru Nguyen Thi Hong inkişaf yolunda əmin addımlarla irəliləyən hər iki ölkənin dostluq və tərəfdaşlıq münasibətlərini birgə səylərlə daha da gücləndirmək əzmində olduqlarını vurğulayıb. O, Azərbaycan ilə Vyetnamın müxtəlif sahələrdə işbirliyini genişləndirməsinin vacibliyinə toxunaraq statistika qurumları arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində görülən işlərdən bəhs edib. Nguyen Thi Hong 2024-cü ilin dekabr ayında Bakıda imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"ndan irəli gələrək sistemli fəaliyyətin həyata keçirildiyini söyləyib. O, bir neçə gün əvvəl statistika sahəsində 2026-2028-ci illər üçün İş Planının imzalanmasının qurumlararası əlaqələri daha da dərinləşdirəcəyinə əminliyini bildirib.

Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının sədri Dang The Vin Azərbaycan-Vyetnam münasibətlərinin yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu söyləyib. O, vaxtilə Azərbaycanda təhsil almış vyetnamlı gənclərin bir çoxunun Vyetnamın ictimai-siyasi həyatında fəal rol oynadıqlarını, iki xalq arasında əlaqələrin möhkəmləndirilməsinə mühüm töhfələr verdiklərini bildirib.

# Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələr güclənir



Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Bunu dünya ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların Azərbaycanla əməkdaşlıqda maraqlı olmaları da təsdiqləyir. Prezident İlham Əliyevin xarici ölkələrə, həmçinin dünya ölkələrinin liderlərinin isə Azərbaycana səfərləri dövlətimizin beynəlxalq əlaqələrinin genişlənməsinə töhfəsini verməkdədir. Son illər Azərbaycanın Avropa, Türk dünyası ölkələri ilə olduğu kimi, ərəb dövlətləri ilə də münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu mənada, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ilə münasibətlər xüsusi əhəmiyyətə malikdir. BƏƏ, eyni zamanda, müxtəlif beynəlxalq tədbirlərin keçirildiyi əsas məkanlardan biridir.

Qeyd edək ki, Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabidə şəhərində Aralıq Dənizi Parlament Assambleyasının Qadın Parlament Forumunun 2-ci sessiyası keçirilib. Milli Məclisin sədri Sahibə Qafarova tədbirdə iştirak edib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sessiyanın açılış mərasimində çıxış edən Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasının dialoq, həmrəylik və qarşılıqlı anlaşma üçün bir platforma olduğunu qeyd edib. Onun sözlərinə görə, gender bərabərliyinə və qadınların səlahiyyətləndirilməsinə xüsusi önəm verilməsi Assambleyanın ümumi məqsədlərə nail olmaq naminə kollektiv fəaliyyətə davamlı sadiqliyinin bariz nümunəsidir.

Azərbaycan Milli Məclisinin Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu əldə etmək üçün rəsmi müraciət etdiyini xatırladan Sahibə Qafarova bu müraciətin dəstəklənməsinin daha sıx əməkdaşlıq və daha səmərəli birgə fəaliyyət üçün yeni imkanlar açacağına inamını ifadə edib. O, eyni zamanda, hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament Assambleyası arasında əlaqələrin də inkişafında maraqlı olduğumuzu qeyd edib.

Çıxışında tədbirin mövzusunun əhəmiyyəti barədə fikirlərini bölüşən spiker deyib ki, gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi haqlı olaraq Dayanıqlı İnkişaf Məqsədlərindən biri kimi müəyyən edilib. Bu məqsədlər yalnız arzuolunan deyil, həm də daha ədalətli dünyanın qurulması və gələcək nəsillər üçün daha yaxşı gələcəyin təmin olunması baxımından zəruridir.

Azərbaycanda gender bərabərliyi sahəsində mövcud olan vəziyyət haqqında tədbir iştirakçılarına məlumat verən parlamentin sədri deyib ki, güclü ailə və mədəni ənənələrə söykənən Azərbaycan cəmiyyətində qadınlar ailənin, - cəmiyyətin ən kiçik vahidinin, - formalaşmasında və dəyərlərin gələcək nəsillərə ötürülməsində daim mərkəzi rol oynayıb. Qadınlar cəmiyyətdə həmişə bərabər tərəfdaş kimi qəbul edilib və onun inkişafına həlledici təsir göstərib. Bu gün Azərbaycan qadınları siyasət, iqtisadiyyat, elm və təhsil, səhiyyə və digər sahələrdə fəal şəkildə təmsil olunurlar. Qadınlar qanunverici və icraedici hakimiyyət orqanlarında, məhkəmə sistemində və diplomatik fəaliyyətdə yüksək vəzifələr tuturlar. O, 2026-2028-ci illəri əhatə edən Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planının qəbul edilməsinin Azərbaycan hökuməti tərəfindən bu sahədə ardıcıl şəkildə həyata keçirilən tədbirlərin davamı olduğunu söyləyib.



Azərbaycan parlamentinin bu prosesdə cəmiyyətin dəyişən tələblərinə uyğun olaraq qanunvericilik bazasının hazırlanması və daim təkmilləşdirilməsində fəal rol oynadığını bildirən S.Qafarova qeyd edib ki, Milli Məclis gender bərabərliyinin təşviqi və qadınların səlahiyyətləndirilməsi sahəsində beynəlxalq əməkdaşlığı qətiyyətlə dəstəkləyir və müxtəlif beynəlxalq platformaların işində fəal iştirak edir. O, bu forum çərçivəsində aparılan müzakirələrin real nəticələr verəcəyinə və qadınların səlahiyyətləndirilməsi kimi ümumi məqsədin, - regionumuzda sosial həmrəyliyin, dayanıqlığın və davamlı inkişafın möhkəmləndirilməsinin əsas şərti olan bu məqsədin, - irəlilədilməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Yeri gəlmişkən, səfər çərçivəsində Sahibə Qafarova bu ölkənin Federal Milli Şurasının sədri Saqr Qobaşla görüşüb. Görüşdə ölkələrimiz arasında münasibətlərin dinamik və hərtərəfli inkişafından məmnunluq ifadə olunaraq, tarixi, dini və mədəni köklərlə bir-birinə bağlı olan ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin bütün sahələr üzrə yüksək səviyyədə inkişaf etdiyi qeyd olunub. Vurğulanıb ki, ölkələrimizin liderlərinin birgə səyləri və şəxsi münasibətləri Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında, habelə xalqlarımız arasında əlaqələrin daha da dərinləşməsinə imkan verib və bu gün ölkələrimiz bir çox sahələrdə geniş və uğurlu əlaqələrə malikdir.

Milli Məclisin sədri, Azərbaycan Prezidenti İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görüldüyünü xatırladaraq, dövlətimizin başçısının Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, mərhum Şeyx Zayedin adını daşıyan belə nüfuzlu mükafata layiq görülməsinin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Söhbət zamanı parlamentlərarası əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri barədə də fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, ölkələrimiz arasında yüksəksəviyyəli əlaqələr parlament platformasında da uğurla davam etdirilir və son dövrlər qanunvericilik orqanlarımız arasında təmaslar və qarşılıqlı səfərlər daha da artıb. O cümlədən parlamentlərimizin beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığından məmnunluq ifadə olunub.

S.Qafarova Aralıq Dənizi Parlament Qadın Parlament Forumunun 2-ci sessiyasının uğurla təşkil olunduğunu qeyd edərək, bu kimi beynəlxalq tədbirlərin bəşəriyyəti narahat edən məsələlərin müzakirəsi baxımından əhəmiyyətini vurğulayıb.

Bütövlükdə, Azərbaycan müsəlman ölkəsi olaraq bu coğrafiyaya daxil olan dövlətlərlə yüksək səviyyədə əməkdaşlığını davam etdirir. İki ölkənin birgə səyləri nəticəsində Azərbaycan-BƏƏ əlaqələri də davamlı olaraq inkişaf edir.

*Nardar BAYRAMLI*

# Azərbaycanın Qayıdış strategiyası!








*Yeganə BAYRAMOVA*

## İllərin nisgili doğma torpaqda sona çatır...

Torpaqlarımızın işğaldan azad edilməsinin ardından başlanan quruculuq işləri geniş vüsət alıb. Artıq 10 minlərlə keçmiş qaçqın və məcburi köçkün "Böyük Qayıdış" proqramı çərçivəsində öz dogma evinə, yurduna qayıdır. Bu proqram təkcə bir sosial hadisə deyil, həm də strateji əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərin bərpası, əhalinin geri dönməsi və iqtisadi fəallığın artması regionların inkişafına və milli birliyin güclənməsinə xidmət edir.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" davam etdirilir. Ötən gün Cəbrayıl rayonunun Horovlu kəndinə 20 ailə, 77 nəfər köçürülüb.

**"İllərdir yurd həsrəti çəkirdim"**

Cəbrayıl rayonunun Horovlu kəndinə köç edən keçmiş məcburi köçkün Alkərəmova Almaz illərdir yurd həsrəti çəkdiyini deyib: "Cəbrayıl işğaldan azad olunandan sonra oraya getmişdim, indi isə birdəfəlik köç edirik. Buna görə çox sevinirəm".

Gənc yaşlarında yurdundan didərgin salındığını bildirən A.Almaz oğlu ilə birgə geri qayıtdığını qeyd edib.

**"Doğma yurduma qayıtmağıma görə çox sevincliyəm"**

Horovlu kəndinə köç edən keçmiş məcburi köçkün Sonya Süleymanova Horovludan çıxanda 38 yaşı olduğunu qeyd edib: "Rayonda tibb bacısı işləyirdim. 33 il idi, həsrətlə bu günü gözləyirdik. Şükür, indi oğlumla birgə qayıdıram və çox sevincliyəm".

Keçmiş məcburi köçkün, həmçinin bu günləri onlara yaşadanlara minnətdarlığını bildirərək qeyd edib: "Möhtərəm Prezidentimizə Allah cansağlığı versin, "Dəmir Yumruq" heç vaxt əyilməsin. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin".

**"Müəllim kimi Horovluda işləmək istəyirəm"**

Keçmiş məcburi köçkün Lamiyə Mehrəliyevanın sözlərinə görə, məcburi köçkün düşəndə 8 yaşı var idi: "Bu gün artıq 41 yaşım var. Çox sevincliyəm, bu gün bizim üçün çox böyük gündür".

Müəllim kimi çoxillik təcrübəyə malik olduğunu deyən L.Mehrəliyeva gələcəkdə məhz Cəbrayılda işini davam etdirmək istədiyini vurğulayıb: "Gələcək planlarımdan biri müəllim kimi Horovluda işləməkdir. 20 il Bakı məktəblərində müəllim işləmişəm və artıq işimi orada davam etdirmək istəyirəm".

Keçmiş məcburi köçkün, həmçinin bu cür ləyaqətli qayıdışa görə Prezident İlham Əliyevə təşəkkür edib, qəhrəman Azərbaycan Ordusuna minnətdarlığını bildirib, şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı arzulayıb.

Yeri gəlmişkən, yanvarın 27-də Zəngilan rayonunun Məmmədbəyli kəndinə də növbəti köç karvanı yola salınıb. Bu mərhələdə 20 ailə - 103 nəfər köçürülüb. Köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Məmmədbəyli kəndi Azərbaycanın zəngin mədəni irsini yaşadan nadir yerlərdən biridir. "Böyük Qayıdış" layihəsi çərçivəsində kəndin infrastrukturu yenidən qurulub, sosial obyektlər fəaliyyətə başlayıb və əkinçilik üçün münbit torpaqlar istifadəyə verilib. Nəticədə bir zamanlar səssiz və tənha olan Məmmədbəyli indi həyat dolu bir kəndə çevrilir.

Bununla yanaşı, kəndin sosial və iqtisadi inkişafına yönəlmiş bir sıra layihələr həyata keçirilib. Məmmədbəyli kəndində yollar asfaltlanıb, ictimai iaşə obyektləri və bazar yerləri tikilib. Kənd məktəbi, uşaq bağçası və səhiyyə məntəqəsi yenidən fəaliyyətə başlayıb, sakinlərin gündəlik ehtiyacları rahatlıqla təmin olunub.

**"Çox sevincliyik ki, uzun illərdən sonra vətənimizə qayıdırıq"**

Zəngilan rayonunun Məmmədbəyli kəndinə köçən keçmiş məcburi köçkün Məhbubə Həsənova uzun illərdən sonra doğma yurduna qovuşduğu üçün çox sevincli olduğunu deyib: "Bu sevinc sözlə ifadə olunacaq kimi deyil. Həm qürur, həm həsrət, həm də minnətdarlıq hissləri bir-birinə qarışır.

Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin, Ordumuzu qorusun. Onların fədakarlığı sayəsində bu günləri yaşayırıq".

M.Həsənova əlavə edib: "O dövrdə baş verən hadisələri tam xatırlamıram. Amma ailəmin danışdıqları, illərlə qəlbimizdə daşıdığımız nisgil, itirilmiş yurd həsrəti mənim yaddaşımda dərin iz buraxıb".

**"Doğma yurda qayıtmaq insanı fərəhləndirir"**

Məmmədbəyli kəndinə köçən keçmiş məcburi köçkün Əkbər Hüseynov söyləyib ki, bu qələbədə əziyyəti olan hər kəsin haqqı ölçüyəgəlməzdir: "Bu gün ailəmlə birlikdə doğma yurduma qayıdıram. Doğma yurdumdan məcburi köçkün düşəndə 36 yaşım var idi. Bu gün 69 yaşımda geri dönürəm. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə can sağlığı versin. Onların fədakarlığı sayəsində bu gün Vətən torpağında addımlayırıq".

O, əlavə edib ki, uzun illərdən sonra doğma yurda qayıtmaq insanı fərəhləndirir, həm də kövrəldir. Elə anlar var ki, sözlə ifadə etmək olmur.

# 907-ci düzəlişin ləğvinin zəruriliyi...



Donald Trampın yenidən hakimiyyətə qayıdışı son 1 ildə beynəlxalq münasibətlər sistemində çoxvektorlu dəyişikliklərin başlanğıcını qoyduğu kimi, Azərbaycan-ABŞ əlaqələrində də yeni mərhələnin əsasını formalaşdırıb. Ötən dövrdə Vaşinqtonun Bakıya yönələn mesajlarında, yüksək səviyyəli dialoqlarda və regional təşəbbüslərə münasibətində açıq şəkildə müşahidə olunan dönüş ABŞ administrasiyasının Azərbaycanın regionda yaratdığı sabitlik modelini və sülh təşəbbüslərini yüksək qiymətləndirdiyini göstərir. Xüsusilə 2020-ci ildə əldə edilən qələbədən sonra bölgədə formalaşan yeni geosiyasi nizam, Azərbaycanın diplomatik manevr imkanları və praqmatik, ardıcıl xarici siyasət kursu ölkəmizi qlobal siyasi xəritənin aparıcı aktorlarından birinə çevirib. Bu gün Azərbaycan nəinki Cənubi Qafqazın yeni təhlükəsizlik arxitekturasının müəllifidir, həm də geniş Avrasiya məkanında enerji təhlükəsizliyi, nəqliyyat şəbəkələri, sülh prosesləri və əməkdaşlıq layihələrinin mərkəzində dayanan dövlət kimi çıxış edir.

## İkitərəfli münasibətlərdə "qara xətt"...

Qeyd edək ki, rəsmi Vaşinqtonun Azərbaycana dövlət yardımı göstərməsini qadağan edən sözügedən düzəliş ilk dəfə 1992-ci ildə senator Con Makkeyn tərəfindən təklif edilmişdi. Sonradan isə senator Con Kerrinin və erməni lobbi təşkilatlarının dəstəyi ilə konqresmen Ueyn Ouens (Yuta ştatı) tərəfindən Konqresdə irəli sürüldü və erməni lobbi təşkilatlarının güclü təzyiqi nəticəsində Konqres tərəfindən qəbul edildi. 11 sentyabr 2001-ci ildə terror aktından sonra Konqres prezidentə düzəlişi ləğv etmək hüququ verən qanun qəbul etdi. Cozef Baydenin ABŞ prezidenti seçilməsinin ardından isə rəsmi Vaşinqtonun Azərbaycana dövlət yardımı göstərməsini qadağan edən bu düzəliş ləğv edilmədi.

Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin Tramp tərəfindən məhz ötən ilin avqustunda Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıyır, ABŞ-n Azərbaycanla əlaqələrin inkişafına verdiyi önəmin təcəssümünü özündə ifadə edir. 907-ci düzəlişin ləğvi Vaşinqtonun siyasi arsenalında qalan iradə baryerinin aradan qaldırılması deməkdir. ABŞ-ın bu addımı onu göstərir ki, Vaşinqton Azərbaycanla əməkdaşlıqda siyasi təzyiq alətlərini deyil, qarşılıqlı maraq və reallığa əsaslanan yanaşmanı seçir.

## ABŞ cəmiyyəti 907-ci düzəlişin ləğvini dəstəkləyir

Vurğulandığı kimi, ABŞ-ın Cənubi Qafqazda sülhün dəstəklənməsi, kommunikasiya xətlərinin açılmasına müsbət yanaşması, regional təhlükəsizliyin möhkəmləndirilməsi üçün göstərdiyi siyasi iradə Azərbaycan - ABŞ münasibətlərinin yeni inkişaf xəttini formalaşdırır. Bu dəyişikliklərin fonunda iki dövlət arasındakı münasibətlərə kölgə salan "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin ləğvi regiondakı real münasibətlər sistemini bir az da irəliyə daşıya bilər. Sirr deyil ki, günümüzün regional dinamikası tamam fərqli konturlara əsaslanır: Azərbaycan beynəlxalq enerji təhlükəsizliyinin aparıcı iştirakçısı və Cənubi Qafqazda sülh gündəliyinin əsas aparıcı qüvvəsidir. ABŞ-ın da bu reallığı qəbul etməsi 907-ci düzəlişin aradan qaldırılmasını daha aktual edir. Qeyd edək ki, Amerika cəmiyyətinin bir çox aparıcı siyasət və fikir adamları da bu fikri dəstəkləyir. ABŞ-ın Saratoqa Fondunun prezidenti Qlen Hovard bildirib ki, 907-ci düzəliş Azərbaycan və ABŞ arasında münasibətlərin erkən dövrünün qalığıdır və nəinki hər il uzadılmalı, birdəfəlik aradan qaldırılmalıdır. O qeyd edib ki, sənəd artıq köhnəlib və istifadə müddətini bitirib. "Çünki Azərbaycanla Ermənistan arasında dinc münasibətlər inkişaf edir. İki ölkə arasında ticarət mövcuddur, Azərbaycan taxıl və enerji təchiz edir. Yəni münasibətlər sürətlə normallaşır. Ona görə də 907-ci düzəliş öz aktuallığını və ABŞ üçün əhəmiyyətini itirib. Deməli, onun aradan qaldırılmasının vaxtıdır", - deyə ekspert əlavə edib.

Qeyd edək bu kimi təşəbbüslər artıq birinci deyil - ötən ilin avqustunda ABŞ-ın Hudson İnstitutunda səfərdə olan Azərbaycan parlamentinin, Xarici İşlər Nazirliyinin, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və yəhudi icmasının təmsilçilərindən ibarət nümayəndə heyəti ilə dəyirmi masa keçirilmişdi. Dəyirmi masada həmçinin ABŞ beyin mərkəzlərinin təmsilçiləri də iştirak ediblər. Tədbirdə çıxış edən mərkəzin direktoru Mayk Doran Bakının prioritetlərinin ABŞ-ın maraqlarına uyğun olduğunu bildirmişdi. Doran demişdi ki, Azərbaycan həm də Mərkəzi Asiya dövlətləri üçün Avropaya açılan qapıdır. Azərbaycanın bu istiqamətdə rolu barədə daha çox danışılmalıdır. Çıxış edən natiqlər də ikitərəfli münasibətlərdə irəliləyiş əldə etmək üçün danışıqların aparılmasının zərurətindən, 907-ci düzəlişin tam olaraq ləğv olunmasından söhbət açmışdılar. Bundan başqa, Azərbaycanın region ölkələri, o cümlədən Türkiyə ilə müttəfiqlik əlaqələri, Mərkəzi Asiya ilə əlaqələrin inkişafında rolu, TRIPP layihəsi və regionun iqtisadi potensialının gücləndirilməsi üçün atılan addımlar, ABŞ-la münasibətlər istiqamətində müzakirələr aparılmışdı.




## Düzəlişin ləğvi gündəmdədir...

Yeri gəlmişkən, artıq bu istiqamətdə bir sıra addımlar da atılıb. Ötəni ilin dekabrında ABŞ Konqresinə Azərbaycana yardımla bağlı məhdudiyyətlərin ləğvini nəzərdə tutan qanun layihəsi təqdim edilib - H.R.6534 saylı qanun layihəsi Azərbaycana yardım göstərilməsinə dair məhdudiyyətlərin ləğvini nəzərdə tutur. Qanun layihəsinin təşəbbüskarı Respublikaçılar Partiyasından Florida ştatını təmsil edən konqresmen Luna Anna Paulinadır

Beləliklə, 907-ci düzəlişin ləğvi həm regional, həm də ikitərəfli siyasi dialoqun gücləndirilməsində, regionda əməkdaşlığın stimullaşdırılmasında və Cənubi Qafqazın qlobal iqtisadi sistemə inteqrasiyasını sürətləndirməsində əsaslı rola malik ola bilər. Vurğulandığı kimi, bu addım həm tarixi ədalətsizliyi aradan qaldıracaq, həm də ABŞ-ın Cənubi Qafqazda yeni reallıqlara dəstəyini gücləndirəcək. Nəticə etibarilə, Bakı ilə Vaşinqton arasındakı münasibətlərin gücləndirilməsi, 907-ci düzəlişin ləğvi və regional əməkdaşlıq layihələrinin reallaşması Cənubi Qafqazın gələcək inkişaf xəttini müəyyənləşdirəcək əsas elementlərdəndir. Bu proses həm Azərbaycan, həm də ABŞ üçün qarşılıqlı fayda və strateji üstünlüklər yaradır.

***P.İSMAYILOV***

# AZƏRBAYCAN TERMİNOLOGİYASININ NƏZƏRİ ƏSASLARI

Müasir dövrdə elmi-texniki tərəqqi, ictimai-siyasi həyatda baş verən dəyişmələr, sosial hadisələr yeni anlayışların yaranmasına səbəb olur və milli dillərdə terminologiyanın nizama salınmasını zəruri edir. Elmi kəşflərlə bağlı yaranan yeni terminlərin əsas hissəsi yarandığı ölkənin, meydana gəldiyi coğrafi məkanın dili ilə bağlıdır. Bu, hər bir dilin lüğət tərkibinə təsir edir və daima yeniləşməsini və zənginləşməsini zəruri edir. Dilin lüğət tərkibinin daim zənginləşən və inkişaf edən terminologiyası milli dilin dil vahidləri ilə yanaşı, dünya dillərinin terminlər sistemi ilə də formalaşır. Bu sistemin formalaşmasını şərtləndirən amillərin, terminoloji sistemin sferalarının təyin edilməsi, termin yaradıcılığı prosesinin nəzəri məsələlərinin araşdırılması dilçilikdə ən aktual problemlərdəndir. Bu baxımdan filologiya elmləri doktoru, professor Sayalı Sadıqovanın "Azərbaycan terminologiyasının nəzəri əsasları" (Bakı, "Elm", 2025, Ic, IIc. ) monoqrafiyası Azərbaycan dilçiliyində aktual problemə həsr olunmuşdur. Əsərdə 8 fəsildə ilk dəfə Azərbaycan terminologiyasının tədqiqi tarixi və inkişafı, dünya dilçiliyində yaranan terminoloji məktəblər, terminologiyanın ümumi nəzəri problemləri, anlayışların yaranma səbəbləri, onların nominativləşməsi və definitivləşməsi prosesi, ümumxalq dili və termin yaradıcılığı prosesi, dillərin qarşılıqlı zənginləşmə prosesi, elmi dildə işlənən beynəlxalq işarə və simvolların xüsusiyyətləri, beynəlmiləl terminlərin yaranma mənbələri və dildə mənimsənilmə prosesinin nəzəri əsasları araşdırılmışdır. Qloballaşma dövründə terminologiya istiqamətdə aparılan bu fundamental tədqiqatda ciddi elmi əhəmiyyət kəsb edən terminologiyanın nəzəri və praktik problemləri tədqiq olunmuşdur. Dilin lüğət tərkibi bu qatı dildə xüsusi funksiya daşıyır və həmin leksik vahidlərin mənası onların aid olduqları sahələrdə müəyyən edilir. Ona görə də monoqrafiyada bu və ya digər bilik, elm, texnika sahələrinə nüfuz edilərək bu sahələrlə bağlı anlayışlar və məfhumların işarələri, terminlərin yaranma prosesinin istiqamətləri müəyyənləşdirilmişdir.

Terminologiya, onun nəzəri və praktik problemləri oxşar dil hadisələri olmaqla sosiolinqvistik amillərlə sıx şəkildə əlaqədardır. Termin və terminologiya problemlərinin izahı ilə bağlı olan məsələlər dilçiliyi təkcə müxtəlif elm sahələrinə yaxınlaşdırmır, həm də müxtəlif zamanlardakı ictimai-siyasi dövrlərə yaxınlaşdırır. Terminologiyanın inkişafı elmlərin inkişaf tarixini özündə yaşadır və yalnız bir dildə deyil, dünyada gedən dil proseslərini özündə ifadə edir. Bu nəzərə alınaraq terminoloji qat öz mahiyyətinə, işlənmə sahələrinə və xüsusiyyətlərinə görə ümumi lüğət tərkibinə daxil olan söz qruplarından öz xüsusi mövqeyinə və roluna görə fərqləndirilir. Bu fərqli xüsusiyyətlər onların mahiyyətini, funksiyalarını, ümumdil hadisəsi olmasını təyin etməklə anlayışların nominasiya prosesinin elm sahələrinin obyekti kimi öyrənilməsini şərtləndirir. Bunlar dilin terminoloji sisteminin formalaşma prosesi, termin yaradıcılığının forma və üsulları, mənbələri haqqında nəzəri ümumiləşdirmə yolu ilə geniş təsəvvür yaratmaqla xüsusi terminologiya üçün ümumi - nəzəri əsaslar hazırlayır. Əsərdə də termin yaradıcılığı prosesinin və onun inkişaf istiqamətlərinin təyin olunmasında ayrı-ayrı dilçilik məktəblərinin təcrübəsi təhlil olunur. Bu məktəblərin terminə, onun səciyyəvi əlamət və xüsusiyyətlərinə baxışları, ayrı-ayrı terminologiya məsələlərinin izahında onların nümayəndələrinin tutduğu mövqe, terminologiyanın qaydaya salınması və yeni terminoloji vahidlərin yaradılması istiqamətləri və ona verilən tələblərin əsas şərtləri verilmişdir. Bununla yanaşı, S. Sadıqova dil və işarə arasında əlaqə nəzəriyyəsinin xüsusiyyətlərini, dil vahidləri vasitəsilə işarələnən konseptlərin linqvistik təhlilini aparmışdır. Nəzəriyyəyə görə müəyyənləşdirilən konseptlər məntiqi və ontoloji ardıcıllığa görə bir-biri ilə əlaqələndirilir.




Praktik terminologiya sahəsində adlandırma və konsept münasibəti arasında əlaqə əsas götürülərək müəyyənləşdirilir ki, bir konsept bir termini təyin edərək onu işarələyir. Terminoloji sistemdə adlandırmada konnotativ vasitələr əsas hesab edilərək dilin statik, dəyişməz, sinxron vəziyyəti əsas götürülür və terminin ifadə etdiyi anlayış elm və texnikanın inkişafı ilə əlaqədar yaranan terminlərin standartlaşdırılması, birmənalı vahidlərlə ifadəsi, konsept və terminlərin toplusu kimi qiymətləndirilir. Terminlərin qeyri-dəqiqliyi, anlayışı dəqiq ifadə etmə yolları, standart olmaması, polisemiya və sinonimiya məsələləri ilə bağlı problemlərin həlli yollarının metodologiyası verilmişdir. Əsərdə Kanada məktəbinin, eləcə də Fransada Ruan məktəbinin, E.Vüster məktəbinin əsas müddəaları təhlil edilərək terminologiyanın inkişaf yolları konseptual şəkildə müəyyənləşdirilmişdir. Terminologiyada konsept və termin arasındakı əlaqələr, sözün sərhədlərinin aydın təsvir edilməsi, mənanın təyini üçün onun anlayışlar əhatəsində sərhədlərinin müəyyənləşdirilməsi, sözün konnotativ deyil, denotativ mənası, terminlərin təkmənalılığı prinsipindən çıxış edərək terminlərin bütün dillərdə ekvivalentliyi, beynəlxalq terminologiyanın təşkili kimi məsələlər şərh olunmuşdur. Dildə terminə verilən tələblər, terminologiya üçün qüsurlu hesab edilən sinonimlik, omonimlik, çoxmənalılıq və s. problemlərin səbəbləri araşdırılmışdır. Terminlərin yaranmasında normativ yanaşmanın əsasında dayanan əsas problem kimi terminə qoyulan ilkin tələblər və adlandırma prosesi ilə bağlı nəzəri qaydalar işlənilib hazırlanmışdır. Terminoloji sistemin formalaşmasında standartlaşma yolları təyin edilərək dilin lüğət tərkibinin zənginləşmə yolları müəyyən edilmişdir. Xüsusilə ilk dəfə terminoloji sistem və onun əsasını təşkil edən terminin başqa dil vahidlərindən fərqli xüsusiyyətləri, formal-struktur təhlili, ayrı-ayrı suffiksal modelləri, adlandırma imkanları müəyyənləşdirilmişdir.

Elmi-texniki, ictimai-iqtisadi və mədəni həyatın müxtəlif sahələrində baş verən yeniliklərin adlandırılmasında dilin daxili imkanları əsas götürülmüşdür. Elmi dildə işlənən işarə və simvolların spesifikası müəyyənləşdirilir, termin yaradıcılığı prosesi, isimlər və digər əsas nitq hissələrinin terminləşməsi öz şərhini tapır. Azərbaycan ədəbi dilində terminlərin yaranma yolları, müasir Azərbaycan ədəbi dilində terminlərin yaranma üsulları, terminologiyada abreviaturalar məsələləri ayrı-ayrılıqda şərh olunmuşdur. Termin yaradıcılığında semantik, morfoloji, sintaktik və kalka üsulları da ətraflı şəkildə tədqiq edilmiş, faktiki materiallarla izahı verilmişdir. Ümumiyyətlə, elmi terminologiyanın inkişafında xalq dilinin əsas mənbə, tükənməz qaynaq olması və dilin daxili imkanlar əsasında termin yaradıcılığı yolları və üsulları zəngin milli dil faktları ilə təhlil olunmuşdur. Uzun tarixi inkişaf yolu keçmiş Azərbaycan dilinin terminoloji sisteminin zənginləşməsində dildaxili imkanlar, xüsusən ümumişlək və dialekt sözlərin terminləşməsi, onların ayrı-ayrı elm sahələrində leksik, morfoloji, sintaktik üsulla yaranması nəzəri cəhətdən müxtəlif istiqamətdən tədqiq olunmuşdur. Qeyd edilir ki, terminologiyada işlənən terminlərin mühüm bir hissəsini mürəkkəb terminlər və leksik birləşmələr şəklində olan termin-söz birləşmələri təşkil edir. Bu, nəzərə alınaraq istər mürəkkəb terminlərin, istərsə də termin-söz birləşmələrinin yaranma yolları, strukturu, komponentlər arasındakı semantik əlaqələr, nitq hissələri ilə ifadə olunması zəngin dil faktları ilə nəzəri baxımdan araşdırılmışdır.

Tədqiqatda alınma terminlərin yaranma mənbələri, dildə mənimsənilmə formaları və unifikasiya problemləri nəzəri aspektdə tədqiq edilərək qeyd edilir ki, hazırda dillərdə alınma terminin adekvat verilmə tendensiyası fəallaşmışdır. Avropa mənbəli terminlərin təsnifatı, sistemləşdirilməsi elmi-texniki terminologiyanın normalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Məhz təsnifat əsasında terminlərin reseptor dildə assimilyasiyası - alınan leksik vahidlərin maddi formasının fonetik, qrafik, qrammatik və leksik-semantik xarakteristikasını alan dilin müvafiq normasına yaxınlaşması yolu ilə mənimsənilməsi, milli dilin tələblərini ödəməsi və konkret olaraq hansı formada dilə qəbul edilməsi amilləri müəyyənləşdirilmişdir. Qeyd edilir ki, alınma terminin dilin fonetik və morfoloji normalarına formal şəkildə uyğunlaşması, dilin müxtəlif funksional üslublarında işlənməsi, dilin söz yaradıcılığı qaydalarına uyğun gəlməsi, onların mənimsənilmə dairəsi təyinetmənin əsas meyarlarıdır. Milli terminlərlə yanaşı, dilin lüğət tərkibini zənginləşdirən alınma terminlər yeni müstəvidə tədqiqat obyekti olmuşdur. S.Sadıqova tərəfindən termin yaradıcılığının yolları və mənbələri nəzəri aspektdən araşdırılaraq müəyyənləşdirilir ki, hər bir dildə, o cümlədən də Azərbaycan dilində terminlərin yaranması prosesi əsasən iki istiqamətdə gedir. Zəngin faktlarla əsaslandırılır ki, Azərbaycan dilində müxtəlif elm sahələrinə aid terminoloji baza dilin öz daxili imkanlarından əlavə rus və Avropa dillərindən alınmış beynəlxalq terminlər əsasında formalaşmışdır. Alınmalar bir proses kimi müvafiq növlərə ayrılır və bunlar müqayisəli şəkildə təhlil edilir. İlk təşəbbüs olaraq dil əlaqələri, qarşılıqlı təsirlə bağlı yaranan anlayışların adlandırılması və dildə nəzəri interpretasiyasının yolları verilir. Müəyyənləşdirilir ki, alınma elementlər Azərbaycan dili terminologiyasında yeni sözlər yaradan vasitə deyildir və Azərbaycan dilinin söz yaradıcılığı arsenalına da daxil ola bilmirlər. Çünki Avropa mənbəli termin elementləri prefiks və suffiks terminlərlə birlikdə dilə daxil olur. Onlar müxtəlif sistemli dillərdə bu və ya digər anlayışın eyni modelli terminlə verilməsində milli dildə təsviri, izahı dəqiq və qısa leksemlə əvəz etməkdə mühüm rol oynayırlar. Termin elementlərdən düzələn beynəlmiləl terminlər konkret bir dilə mənsub olsalar da dünya dillərinə çox sürətlə yayılıb və qəbul edilirlər. Monoqrafiyada Avropa mənbəli alınma terminlərin təsnifatı, onların alınma amilləri, genealoji tərkibi verilir.

Alınma terminlər içərisində xüsusi yer tutan beynəlmiləl terminlər ayrıca tədqiqat və təhlil obyektinə çevrilir. Hər bir terminin müəyyən definisiya əsasında təyininin zəruriliyi, termini anlayışdan fərqləndirən, onu digər məfhumlardan ayıran meyarlar əsasında adlandırılması, definisiyasının sahə anlayışlarının iyerarxik yerləşmə xüsusiyyətini pozmadan verilməsinin əhəmiyyəti elmi faktlarla şərh olunur. Bu da terminin istər başqa dildən alınması, istərsə dilin öz imkanları hesabına yaradılması zamanı onun anlayışı ifadəetmə imkanlarının dəqiq nəzərə alınmasını özündə birləşdirir. Belə bir xüsusiyyət terminin elm və texnikanın müxtəlif sahələrində məntiqi cəhətdən dəqiq formalaşmış spesifik anlayışları ifadə etməsi tələbinin yerinə yetirilməsini gerçəkləşdirir.

Monoqrafiyada terminlərin alınmasını yaradan səbəblər, alınma terminlərin yaranma mənbələri, terminlərin alınma yolları araşdırılmış, Azərbaycan dilində alınma terminlər mənşəyinə görə qruplaşdırılmışdır. Beynəlmiləl terminlər, onların struktur-semantik xüsusiyyətləri, qoşa terminlər, terminologiyada alınmaların leksik-funksional paralelliyi, Azərbaycan dilində alınma terminlərin semantikası məsələləri təyin edilir və deformativ və konservativ termin elementlər fərqləndirilərək, onların hər birinin izahı verilir. Avropa mənbəli terminlərin təsnifatı, sistemləşdirilməsi elmi-texniki terminologiyanın normaya salınmasında mühüm əhəmiyyətə malikdir. Məhz təsnifat əsasında terminlərin reseptor dildə assimilyasiyası alınan leksik vahidin maddi formasının fonetik, qrafik, qrammatik və leksik-semantik xarakteristikasını alan dilin müvafiq normasına yaxınlaşması yolu ilə mənimsənilməsi, milli dilin tələblərini ödəməsi və konkret olaraq hansı formada dilə qəbul edilməsi amilləri müəyyənləşdirilmişdir. Mənimsəmə prosesində alınan terminin alan dilin fonetik və morfoloji normalarına formal şəkildə uyğunlaşması, dilin müxtəlif funksional üslublarında işlənməsi, dilin söz yaradıcılığı qaydalarına uyğun gəlməsi, dilin terminləri ilə birləşmələr yaratması, alınma sözün mənimsənilmə dairəsinin təyinetmənin əsas meyarları xarakterizə edilmişdir. Geniş və çoxcəhətli problemləri özündə ehtiva edən bu əsər dilçiliyimiz üçün dəyərli bir mənbədir. Əsər ədəbi dilin müxtəlif aspektdən tədqiqinə, nəzəri qənaətlərin və müddəaların formalaşdırılmasına istiqamət verir. Azərbaycan filologiyasında əhatə dairəsi və yüksək elmliyi ilə seçilən, poliqrafik baxımdan da yüksək səviyyədə nəşr olunan bu monoqrafiya Azərbaycan dilçiliyi üçün əhəmiyyətli bir əsərdir.

***Əbülfəz Quliyev,***
***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü***

# "Qərbi Azərbaycan: Danışan izlərin işığında"

Bakı Slavyan Universitetində (BSU) Azərbaycan Respublikasının "Azərbaycan Mədəniyyəti-2040" Konsepsiyasına uyğun olaraq BSU-nun Tədbirlər Planı çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Beynəlxalq əlaqələr üzrə prorektoru, professor, Qərbi Azərbaycan İcması(QAİ) İdarə Heyətinin üzvü Mahirə Hüseynovanın "Qərbi Azərbaycan: Danışan izlərin işığında" adlı kitabının təqdimatı keçirilib.

Universitetdən AZƏRTAC-a bildirilib ki, əvvəlcə professor Mahirə Hüseynovanın elmi-pedaqoji, ictimai fəaliyyəti və bədii yaradıcılığı haqqında videoçarx nümayiş etdirilib.




BSU-nun rektoru Anar Nağıyev təqdimatı keçirilən kitabın elmi və ictimai əhəmiyyətini xüsusi vurğulayıb. Rektor qeyd edib ki, Qərbi Azərbaycanda Azərbaycan tarixinin, mədəni irsinin və milli dəyərlərinin sistemli şəkildə tədqiqinə həsr olunan bu kitab elmi müstəvidə təqdimatı baxımından mühüm əhəmiyyət daşıyır.

Rektor BSU-da fəaliyyət göstərən Qərbi Azərbaycan Tədqiqat Mərkəzinin bu istiqamətdə gördüyü işlərdən də bəhs edərək, mərkəzin elmi fəaliyyətinin genişləndirilməsində professor Mahirə Hüseynovanın dəstəyini qeyd edib. Bildirib ki, Qərbi Azərbaycan mövzusu artıq universitetin tədris proqramlarında, dərs vəsaitlərində və elmi tədqiqat istiqamətlərində sistemli şəkildə yer almaqdadır.

Tədbirdə çıxış edən natiqlər kitabda Qərbi Azərbaycan reallıqlarının tarixi, elmi və mədəni aspektlərdən sistemli şəkildə araşdırıldığını vurğulayıblar.

Professor Mahirə Hüseynova tədqiqat əsərində Qərbi Azərbaycanın tarixi-mədəni irsi, dil, folklor və milli-mənəvi dəyərlərinin elmi əsaslarla araşdırıldığını diqqətə çatdırıb, bu mövzuda aparılan tədqiqatların əhəmiyyətini vurğulayıb.

**YENİ AZƏRBAYCAN**

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Bir qərarla tarix yazan adam!

## Əfsanəvi hakim Tofiq Bəhramovun doğum günüdür...



*Yeganə BAYRAMOVA*

Bu gün Azərbaycan idman tarixində silinməz iz qoymuş, adı dünya futbolunun qızıl səhifələrinə yazılmış əfsanəvi hakim Tofiq Bahramovun doğum günüdür. O, təkcə Azərbaycan futbolunun deyil, ümumilikdə, dünya futbol tarixinin ən tanınmış simalarından biridir. Tofiq Bəhramov 1925-ci il 29 yanvarda Bakıda anadan olub.

Futbolçu karyerasına 1943-cü ildə başlayan T.Bəhramov əvvəlcə “Spartak”ın gənclərdən ibarət komandasında çıxış edib. Daha sonra isə “Neftyanik”ə dəvət olunub. O, futbolçu kimi təkcə Azərbaycan çempionatında iştirak edib. Müasirlərinin sözlərinə görə, Bəhramov əsas oyunçu olmasa da, komandanın kapitanı olub və hakimlərlə daha çox mübahisə etməsi ilə digər oyunçulardan fərqlənib.

Lakin onun futbolçu karyerası istədiyi kimi alınmayıb. Ayağından aldığı zədə karyerasına erkən son qoyması ilə nəticələnib. Bununla belə, futbolun vurğunu olan Tofiq Bəhramov sevimli məşğuliyyətindən ayrılmaq istəməyib və hakim kimi bu idman növündə öz fəaliyyətini davam etdirmək qərarına gəlib.

1951-ci ildən SSRİ çempionatının oyunlarına hakim kimi təyinat alıb, 1964-cü ildən isə beynəlxalq oyunları idarə etmək hüququ qazanıb. O, SSRİ-də beynəlxalq çempionatları idarə edən ilk hakim kimi fərqlənib. İki oyunda baş hakim, altı oyunda isə yan xətt hakimi kimi çıxış edib. Dünya Çempionatının final oyununa düşmək üçün Bəhramova cəmi iki beynəlxalq oyunu idarə etmək kifayət edib. İndiki zamanda isə bu, qətiyyən mümkün deyil.

O, Nikolay Latışevdən sonra dünya kubokunun final mərhələsində hakimlik etmiş ikinci, Avropa kubokunun final oyununu idarə edən birinci sovet hakimi olub.

1966-cı ildə FIFA Dünya Kubokunun futbol oyunları həmyerlimizi futbolla maraqlanan hər kəsə tanıtdırdı və Tofiq Bəhramovun adının tarixdə qalmasına şərait yaratdı. Almaniya və İngiltərə millilərі arasında baş tutan final oyununda Cefri Hertsin mübahisəli qolunu qeydə alan Bəhramovun qərarının doğru olduğunu sonradan bütün dünya bildi.

Həmin ərəfədə “Qızıl fit”lə yalnız baş hakimlər təltif olunurdular. Tofiq Bəhramov bu oyundan sonra, həmçinin, Böyük Britaniya kraliça II Elizabetin şəxsən təqdim etdiyi “Qızıl ilahə” (dünya kuboku) mükafatına layiq görülüb.

Çox az adam bilir ki, Tofiq Bəhramov 1970-ci il Dünya Çempionatında da hakimlik edib. Meksikada keçirilən mundialda Bəhramov üç oyunu, ən əsası isə əfsanəvi yarış sayılan Braziliya-Uruqvay yarımfinal yarışını idarə edib.

1971-ci il 25 mayda Lev Yaşinin vida matçında SSRİ dünya yığması ilə qarşılaşıb, həmin görüşü də Bəhramov idarə edib. O, 1968 və 1972-ci illərdə keçirilən Avropa çempionatlarında, həmçinin Qitələrarası Kubokda (“Estudiantes” - “Mançester Yunayted” oyununda laynsman, “İndependyente” - “Ayaks” matçında baş hakim) ədaləti təmin edib.

1972-ci ildə UEFA kubokunun final matçı (“Vulverhempton” - “Tottenhem”) da ona tapşırılıb. Tofiq Bəhramov 1975-ci ildə hakimliklə vidalaşıb.

1975-ci ildə yenidən “Neftçi”yə qayıdan Bəhramov üç il komandada ikinci məşqçi kimi fəaliyyət göstərib. Bəhramov “Neftçi”nin rəisi vəzifəsində də çalışıb. O, 1974-cü ildən ömrünün sonuna kimi Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun bədən tərbiyəsi və idman kafedrasının müdiri işləyib.

1992-ci ildə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasında hakimlərin sədri, daha sonra isə baş katib vəzifələrində çalışıb. Dünya futbol tarixinə “Qızıl fit” almış yeganə laynsman kimi düşən Tofiq Bəhramov 1993-cü il martın 26-da üçüncü dəfə infarkt keçirib və dünyasını dəyişib.

Bəhramov haqqında sənədli film də çəkilib.



“Freeview Playback” şirkəti Böyük Britaniya sakinləri arasında “Siz bəşəriyyət tarixində hansı stop-kadrı ən məşhur hesab edirsiniz?” sualı əsasında sorğunun nəticələrini müəyyənləşdirib. Nəticələrə görə, Ceff Herstin vurduğu qol birinci, Tofiq Bəhramov ikinci, “Əsas instinkt” filmindəki Şeron Stounun qalmaqallı epizodu üçüncü yerlə dəyərləndirilib.

2004-cü ildə vəfat edən ingilis yazıçı Artur Hopkraft Azərbaycan arbitrinə özünün ən məşhur “Futbol adamı” kitabını həsr edib. Əgər azərbaycanlılar üçün Tofiq Bəhramov o zamandan bəri dünya çempionatının final oyununu idarə edən hakim hesab olunursa, ingilislər üçün Metto Basbi, Alfom Remzi, Bobbi Mur, Bobbi Çarlton kimi futbol simvolları ilə bir sırada durur. Artur Hopkraft kitabında yazır: “Bəhramov bayrağını qaldıranda təkcə “Uembli” deyil, bütün İngiltərə onun ayaqları altında idi.

Hamı fikirləşirdi: Bu rus nə istəyir? Ancaq üstündən 10 illərlə vaxt keçəndən sonra hamı başa düşdü ki, o, rus deyil, möcüzəli bir ölkənin, Azərbaycanın oğludur. Sonradan futbolçular mənə etiraf edirdilər ki, onlar özlərini yan xətt hakimini qaçıb qucaqlamaqdan zorla saxlayıblar. Onlara verilən bu hədiyyəyə görə yox, öz işini peşəkarcasına yerinə yetirdiyinə görə”.

2004-cü ilin 14 oktyabrında dünya futbolunun ulduzları T.Bəhramovun xatirəsinə həsr olunmuş seçmə oyunlarda Azərbaycan və İngiltərə yığmasının oyununu izləmək üçün Bakıya gəldilər. Həmin gün əfsanəvi hakimin şərəfinə ucaldılan abidənin açılış mərasimi də keçirildi. Dünyada hakimlər içərisində ilk dəfə məhz onun adına abidə ucaldılıb. Mərasimdə FIFA-nın prezidenti Yozef Blatter, icraiyyə komitəsinin üzvü Mişel Platini, Ceff Herst və digər görkəmli futbolçular da iştirak ediblər.

Qeyd edək ki, 2004-cü ildə dünyada hakimlər içərisindən ilk dəfə məhz onun adına abidə ucaldılıb. Tofiq Bəhramov 2006-cı il dünya çempionatına həsr olunan cizgi filminin qəhrəmanı da olub.

Tofiq Bəhramovun futbolda xidmətləri çox olub. Elə ona görə də ölkənin bir nömrəli idman arenası - Respublika stadionu onun adını daşıyır. Stadionun girişində dünyada ilk dəfə mərhum hakimə abidə də ucaldılıb.

---



# “SpaceX” şirkəti yeni nəsil kosmik gəmi gələn istifadəyə verəcək

Növbəti nəsil kosmik gəminin daha inkişaf etmiş və güclü versiyası olan “Starship”in 12-ci sınaq buraxılışı altı həftə sonra, 2026-cı ilin mart ayında baş tutacaq. Beləliklə, 12-ci uçuş “Starship V3” (və ya “Block 3”) arxitekturası üçün debüt buraxılışı olacaq.

“SpaceX” şirkətinin məlumatına istinadla xəbər verir ki, uçuş daha əvvəl tarixə planlaşdırılmışdı, lakin 2025-ci ilin noyabr ayında “Booster 18” gücləndiricisi sınaq zamanı zədələnib. Hazırda missiya üçün “Booster 19” və “Ship 39” kombinasiyası hazırlanır və bu həftə onların mühüm sınaqlardan keçmələri planlaşdırılır.

Texasdakı “Starbase” bazasında yerləşən ikinci buraxılış meydançasından (OLP-2, “Pad 2”) ilk buraxılışın olacağı gözlənilir. Uçuş planı gücləndirici və gəminin bərpası olmadan əvvəlki missiyaların təkrarlanmasını nəzərdə tutur.

Şirkətin sahibi İlon Mask bildirib ki, “SpaceX” bu il “Starship” kosmik gəmisinin tam miqyasda təkrar istifadə edilə biləcəyini sübut etməyi planlaşdırır ki, bu da böyük bir nailiyyət olacaq. Çünki bu kosmik layihə kosmosa çıxış xərclərini 100 dəfə azaldacaq.

“SpaceX” 2-ci platformanın tamamlanmasına yaxınlaşdıqca, şirkət artıq 1-ci platformanı təkmilləşdirmək üçün hazırlıq işlərinə başlayıb.

Xatırladaq ki, 11-ci sınaq uçuşu 2025-ci il oktyabrın 13-də baş tutub. Bu, “Starship V2”nin son sınağı idi. Təkmilləşdirilmiş versiya əvvəlkindən böyükdür və daha yüngül, lakin nisbətən güclü dartma təklif edən yenilənmiş “Raptor” mühərrikləri ilə təchiz olunub. “SpaceX” qeyd edir ki, “Starship V3” Marsa çata bilən raketin ilk versiyasıdır. Model təkcə əvvəlki versiyadan beş fut hündür deyil, həm də genişləndirilmiş yanacaq çənləri və orbitdə yanacağın ötürülməsi üçün yeni dok portlarına malikdir. Bu prosedur aşağı Yer orbitindən kənara uçuşlar üçün vacibdir.

Keçən ilin oktyabr ayında 11-ci sınaq uçuşunun uğurla başa çatmasına baxmayaraq, İlon Mask qeyd edib ki, “Starship V3” ilə şirkətin “yenidən öyrənəcəyi” çox şeylər olacaq, çünki kosmik gəminin komponentlərinin əhəmiyyətli bir hissəsi təkrarən dizayn edilib. Bu yaxınlara qədər “SpaceX” kosmik gəmi üçün istilik qorunmasına müxtəlif yanaşmaları sınaqdan keçirirdi. Avadanlıqlar yenidənqurma zamanı onların effektivliyini qiymətləndirən müxtəlif plitələrlə örtülmüşdü. “Starship” tədqiqatçıları Aya qaytarmaq üzrə NASA-nın planlarının əsasını təşkil edir. Buna görə də bu nəqliyyat vasitəsinin Ay versiyasının inkişaf müddəti “SpaceX” üçün vacibdir. Şirkətin rəqibi NASA ilə də müqaviləsi olan Ceff Bezosun “Blue Origin” şirkətidir. Agentlik artıq Aya eniş edən aparatın inşasını daha tez başa çatdıra biləcək podratçını seçəcəyini vurğulayıb.

*İdman*

## Azərbaycan Ümumdünya Antidopinq Agentliyinin forumunda təmsil olunub



Özbəkistanın paytaxtı Daşkənddə Ümumdünya Antidopinq Agentliyi (WADA) tərəfindən “Qlobal antidopinq idarəçiliyinin gücləndirilməsi: Uyğunlaşdırma, ardıcıllıq və regional əməkdaşlıq” mövzusunda beynəlxalq forum təşkil olunub. Azərbaycan Milli Antidopinq Agentliyindən (AMADA) AZƏRTAC-a verilən məlumata görə, tədbirdə ölkəmizi AMADA-nın İcraçı direktoru Təhminə Tağı-zadə təmsil edib. Açılış mərasimində WADA-nın prezidenti Vitold Banka, Özbəkistan Respublikasının idman naziri Adham İkromov və milli antidopinq agentliyinin direktoru Abduşukur Sodikov çıxış ediblər. Forumda qarşıdakı illərdə həyata keçiriləcək prioritet vəzifələr müəyyən edilib. Xüsusilə, WADA Məcəlləsinin tələblərinə tam uyğunluq, idmançıların sağlamlığının və hüquqlarının qorunması məsələlərinə xüsusi diqqət yetirilərək müzakirələr aparılıb.

## Elan

“AZƏRİ MED” Qapalı Səhmdar Cəmiyyəti (VÖEN: 1500072561) AZ1001022891 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmış nominal dəyəri 2 manat, miqdarı 4.127.755 ədəd olan adi adlı sənədsiz səhmlərin dövriyyədən çıxarıldığını elan edir.

## Güləş Federasiyası və Milli Olimpiya Komitəsi birgə layihələr icra edəcək

Azərbaycan Güləş Federasiyasında (AGF) müxtəlif layihələrlə bağlı Milli Olimpiya Komitəsinin (MOK) rəsmiləri ilə görüş keçirilib. AGF-dən AZƏRTAC-a bildirilib ki, MOK-un Beynəlxalq Proqramlar İdarəsinin müdiri Ceyhun Rəhmanovla keçirilən görüş zamanı bir sıra strateji əhəmiyyətli məsələlər müzakirə olunub. Məşqçilər üçün beynəlxalq təlim və sertifikasiya proqramlarında iştirak imkanları, müxtəlif ölkələrin təcrübəsinə əsaslanan milli idman sistemlərinin təkmilləşdirilməsi modelləri, eləcə də gənc atletlərin inkişafına yönəlmiş beynəlxalq layihə və proqramlara qoşulma perspektivləri ətraflı şəkildə dəyərləndirilib.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4604**
**Sifariş: 149**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova